Xalq qəzeti.-2023.- 23 may.- S.15

Elçin – 80

# Yubilyar ədibin yaradıcılığına elmi baxış

**Dünən AMEA Ədəbiyyat İnstitutunda Azərbaycan Milli Kitabxanası ilə birgə Xalq yazıçısı, görkəmli ictimai-siyasi xadim, professor Elçin Əfəndiyevin 80 illik yubileyi münasibətilə "İki əsrin görkəmli sənətkarı" mövzusunda elmi sessiya keçirilib.**

AMEA Humanitar və ictimai elmlər bölməsi qururumlarının rəhbərləri, əməkdaşları, yazıçının tədqiqatçıları əvvəlcə Milli Kitabxananın Elçinin yaradıcılığı barədə təşkil etdiyi sərgi ilə tanış olublar.

Elmi məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Elçin Əfəndiyevin zəngin və çoxcəhətli yaradıcılığı ilə dünya şöhrətli sənətkar zirvəsinə yüksəldiyini vurğulayıb. O, Elçinin çağdaş Azərbaycan ədəbi-ictimai fikir tarixində hərtərəfli şəxsiyyət – istedadlı yazıçı, məhsuldar dramaturq, dəyərli ədəbiyyatşünas, həm də fəal ictimai xadim kimi tanındığını bildirib.

AMEA rəhbəri Elçinin əsərlərinin həyatın ziddiyyətlərini, milli idealları, Azərbaycan gerçəkliyinin özünəməxsusluqlarını təbii, dolğun və yüksək sənətkarlıqla əks etdirdiyini söyləyib. O, görkəmli yazıçının yaradıcılığında Abşeron hekayələrinin xüsusi yeri olduğunu qeyd edərək, "Baladadaşın ilk məhəbbəti" əsərinin Azərbaycan hekayə janrının seçilən nümunələrindən biri olduğunu deyib. İsa Həbibbəyli Xalq yazıçısı Elçinin ədəbiyyata xidmət etməkdən heç zaman yorulmadığını, bu gün də yeni ədəbi nümunələri və samballı elmi-nəzəri mülahizələri ilə ədəbiyyatımızı və sahə elmini zənginləşdirdiyini bildirərək ədibə yeni yaradıcılıq uğurları arzu edib.

Sonra Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, AMEA Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev Elçin yaradıcılığının özəlliklərindən söz açıblar.

Elmi sessiyada AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Elçinin hekayə poetikası", filologiya elmləri doktoru Sara Osmanlının "Yazıçı tənqidinin özəllikləri", professor Nizami Tağısoyun "Elçinin "Baş" romanının kompozisiya-struktur polifonizmi", dosent Nərminə Ağayevanın "Zamanın Elçin teatrı və Elçin teatrının zamanı" və fəlsəfə doktoru Gülnar Osmanovanın "Elçin nəsri mif və folklor kontekstində" mövzusunda məruzələri dinlənilib.



Sonda çıxış edən Xalq yazıçısı Elçin yaradıcılığına həsr edilmiş elmi məclisin təşkilinə və keçirilməsinə görə məmnunluğunu bildirib, təşəkkürünü ifadə edib. O, gənclik illərinin Ədəbiyyat İnstitutu ilə bağlı olduğunu xatırlayaraq, bu elmi müəssisənin Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, onun nəzəri bazasının genişlənməsində böyük xidmətləri olduğunu qeyd edib.

**Qabil YUSİFOĞLU, "Xalq qəzeti"**